# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

**Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş layihənin yerinə yetirilməsi üzrə**

## YEKUN ELMİ-TEXNİKİ HESABAT

Layihənin adı: **Naxçıvan tarixinin arxeoloji, etnoqrafik, epiqrafik və Şərq mənbələri əsasında kompleks tədqiqi, tarix-mədəniyyət abidələrinin elektron qeydiyyatı və xəritələşdirilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Baxşəliyev Vəli Baxşəli oğlu**
Qrantın məbləği: **150 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/47/5-M-49**
Müqavilənin imzalanma tarixi: **27 aprel 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2017-ci il – 01 may 2019-cu il**

Hesabatda aşağıdakı məsələlər işıqlandırılmalıdır:

| | |
|---|---|
| 1 | Layihənin həyata keçirilməsi üzrə yerinə yetirilmiş işlər, istifadə olunmuş üsul və yanaşmalar |
| | *(Müqayisəli təhlil, tipoloji analiz, paleoqrafik analiz, karbon analizlər, fauna və flora qalıqlarının analizi)* |
| 2 | Layihənin həyata keçirilməsi üzrə planda nəzərdə tutulmuş işlərin yerinə yetirilmə dərəcəsi (faizlə qiymətləndirməli) |
| | *(95 %)* |
| 3 | Hesabat dövründə alınmış elmi nəticələr (onların yenilik dərəcəsi, elmi və təcrübi əhəmiyyəti, nəticələrin istifadəsi və tətbiqi mümkün olan sahələr aydın şəkildə göstərilməlidir) |
| | *1. Azərbaycan arxeologiyasında Eneolit abidəsi kimi tanınan Kültəpə yaşayış yerində 2017-2018-ci ildə aparılan tədqiqatlar xam torpağa çatana qədər davam etdirilmiş, Kültəpənin Neolit dövrünə aid abidə olduğu tam müəyyənləşdirilmişdir. Araşdırmalar Kültəpənin Cənubi Qafqazda ən qədim Neolit dövrü abidəsi olduğunu təsdiq etmişdir. I Kültəpə* |

yaşayış yeri ətrafında yerləşən Eneolit dövrü yaşayış yerlərinin tədqiqi nəticəsində Kültəpə və onun ətrafında yaşayan insanların e.ə. VII minillikdən əkinçiliklə və köçmə maldarlıqla məşğul olduğu müəyyənləşdirilmişdir. Köçmə maldarlıq insanların müxtəlif faydalı qazıntılar, o cümlədən misla tanışlığına səbəb olmuşdur. Kültəpə ətrafındakı abidələrin tədqiqi ölkəmizin qədim sakinlərinin miqrasiyasının arealını, onların qədim Şərq ölkələri ilə iqtisadi-mədəni əlaqələrini öyrənməyə imkan vermişdir. E.ə. VII-VI minilliklərdən Göyçə hövzəsi və Zəngəzurun Naxçıvanda yaşayan tayfaların təsir dairəsində olduğu təsdiqlənmişdir. Kültəpə obsidianlarının 50%-nin Ovçulartəpəsi obsidianlarının isə 74%-nin Göyçə hövzəsindən gətirildiyi müəyyən edilmişdir. Sirbabçay abidələrinin bir qismində Göyçə, digər qismində isə Zəngəzur obsidianı üstünlük təşkil edir. Şahbuz rayonunda yerləşən Sələsüz, Dərə Şahbuz, Kolanı və digər abidələrdən aşkar olunan obsidianların tədqiqi onların başlıca olaraq Zəngəzur yataqlarından gətirildiyini göstərir. Bu fakt Zəngəzur obsidianının Naxçıvandan keçərək Urmiya hövzəsinə getdiyini təsdiqləyir. Obsidianların analizi AMEA Naxçıvan Bölməsinin Fransa və Avstraliya arxeoloqları ilə iş birliyi sayəsində həyata keçirilmişdir.

2. Naxçıvantəpə yaşayış yerinin tədqiqi nəticəsində Cənubi Qafqazda ilk dəfə olaraq yeni arxeoloji mədəniyyət aşkar olunmuşdur. Naxçıvançay vadisində yerləşən Naxçıvan təpə abidəsinin araşdırılması Naxçıvanın Dalma təpə mədəniyyətinin əsas mərkəzlərindən biri olduğunu göstərmişdir. Naxçıvan təpə, Uzun Oba, Bülövqayası və Uçan Ağıl yaşayış yerlərinin tədqiqi Cənubi Qafqazın Son Neolit və Son Eneolit mədəniyyətləri arasındakı boşluğu doldurmağa imkan verir. Belə ki, indiyədək Cənubi Qafqazda aparılan araşdırmalar zamanı Son Neolit təbəqənin üzərində Son Eneolit təbəqəsinin olduğu müəyyən edilmişdir. Ümumiyyətlə, e.ə. V minilliyin birinci yarısı ilə tarixlənən abidələr Cənubi Qafqazda indiyədək aşkar olunmamışdır. Naxçıvanın Eneolit abidələrinin tədiqi Cənubi Qafqazda ilk dəfə olaraq Eneolit dövrünün dörd ardıcıl inkişaf mərhələsindən keçdiyi müəyyən edilmişdir. Naxçıvan təpə, Ovçular təpəsi və Yeni yol yaşayış yerlərinin arxeoloji materialları əsasında Cənubi Qafqaz və Naxçıvanın eneolit dövrü keramikasının erkən və orta mərhələlərinin xüsusiyyətləri müəyyənləşdirilmişdir. Karbon analizlər əsasında Eneolit dövrünün erkən və orta mərhələlərinin dəqiq tarixləri müəyyənləşdirilmişdir. Naxçıvan təpə abidəsinin tədqiqi həmçinin Mil və Qarabağ düzündəki mədəniyyətlərin mənsubiyyəti və dövrünü müəyyən etmək üçün əhəmiyyətli olmuşdur.

3. Araşdırmalar Kültəpə ətrafında məskunlaşan qədim insanların Zəngəzur və Dərələyəz dağlarındakı faydalı qazıntılardan yararlandığını Göyçə hövzəsi, Urmiya hövzəsi, Mil və Qarabağ düzlərinin daxil olduğu böyük coğrafi məkanda yaşayan insanlar arasında iqtisadi və mədəni əlaqələrin olduğunu deməyə imkan verir. Yaşayış yerinin müxtəlif təbəqələrindən mis filizinin minerallarının tapılması qədim Kültəpə sakinlərinin ətraf aləmlə, o cümlədən misin mineralları ilə tanış olduğunu göstərir. I Kültəpə, Uçan Ağıl, Zirincli, Ovçular Təpəsi kimi yaşayış yerlərindən mis filizinin və minerallarının tapılması Naxçıvanın Cənubi Qafqazda ən qədim metallurgiya mərkəzlərindən biri olduğunu deməyə imkan verir. Ovçular Təpəsindən körük ucluğunun, Zirinclidən isə saxsı qəlibin tapılması, e.ə.V minillikdə Naxçıvanda metal emalının mənimsəndiyini təsdiq edir. İlk tədqiqatlar Naxçıvandakı mis yataqlarının qədim insanlar tərəfindən istifadə olunduğunu təsdiq edir. Qədim mis, qurğuşun alətlərin mis yataqları ilə qarşılıqlı analizi Naxçıvanın qədim metallurgiyasının yerli xammala əsaslandığını deməyə əsas verir.

4. Duzdağ mədənləri tədqiqi nəticəsində Eneolit və Erkən Tunc dövrünə aid əmək alətləri və keramika məmulatı aşkar olunmuşdur. Daş alərlərin keramikanın yayıldığı zonalar üzrə bölüşdürülməsi görərik ki, daş alətlərin aşkar olunduğu zonalar başlıca olaraq Son Eneolit və Erkən Tunc dövrünə aid keramikanın konsentrasiya olunduğu ərazilər ilə uyğun gəlir. Bu faktlar daş alətlərin daha çox tarixəqədərki dövrün son mərhələsində istifadə

olunduğunu ehtimal etməyə imkan verir. Aparılan araşdırmalar zamanı qədim mədən sənayesinin infrastrukturları və dünyanın ən qədim duz mədənlərinin Naxçıvan Duzdağında olduğu müəyyənləşdirilmişdir. Duzdağdakı araşdırmalar Fransız arxeoloqları ilə işbirliyi sayəsində həyata keçirilmişdir.

5. AMEA Naxçıvan Bölməsi Əlyazmalar Fondunda olan əlyazma nümunələrini araşdırarkən 1281 hicri-qəməri (1860) tarixində yazılmış əlyazma aşkar olunmuşdur. Əsərin müəllifi Məhəmməd Həsən Ordubadinin Naxçıvanın dilbər guşələrindən biri olan Ordubad şəhərindən olduğu müəyyən edilmişdir. Əsərin sonunda göstərilən tarixə əsasən Məhəmməd Həsən Ordubadinin XIX əsrin birinci yarısında, təqribən 1810-1860-cı illərdə yaşadığını və fəaliyyət göstərdiyini təxmin etmək olar. O bir alim, maarifpərvər ziyalı kimi öz dövrünün görkəmli şəxsiyyətlərindən biri olmuşdur. M.H.Ordubadi şərq dillərini öyrənmiş və bir sıra nəzər sahibləri ilə fikir mübadiləsi etmişdir. Müəllifin əlimizdə olan ərəb dilində 73 səhifədən ibarət bu əsəri əlyazma şəklində bu günki dövrümüzə gəlib çatmışdır. Əsərin əvvəlindən və sonundan bir hissənin düşməsi səbəbindən onun adını müəyyən etmək mümkün olmamışdır. Eləcə də bu səbəbdən əsər bütöv deyil. Bununla belə müəllifin astronomiyadan (göy və səma cisimlərindən) bəhs edən bu əsəri istər öz dövrü üçün, istərsə də özündən sonrakı dövrlər və bu gün üçün əhəmiyyətli xarakter kəsb etməkdədir. Əsərin müqəddiməsindəki açıqlamadan məlum olur ki, həmin dövrdə Ordubad şəhərində Əl-Həqiqət adlı məşhur elm mərkəzi olmuşdur. Elmi mərkəz bir neçə istiqamətdə elmi tədqiqatlarla yanaşı, həm də onun təlim və tədrisini həyata keçirmişdir. Məhəmməd Həsən Ordubadi bu mərkəzin ən görkəmli aparıcı simalarından biri kimi fəaliyyət göstərmişdir. Əlyazma materiallarının araşdırılması nəticəsində həmçinin Naxçıvanın tarixi şəxsiyyətlərindən biri olan Fazil Naxçıvani haqqında məlumat əldə edilmişdir. Orta əsr əlyazmalarının tədqiqi nəticəsində Elxanilər dövrünün görkəmli şəxsiyyəti Məhəmməd ibn Hinduşah Naxçıvani haqqında yeni məlumatlar əldə olunmuş, onun xidmətlərinə görə "Şəmsi Münşi ən-Naxçıvani" (Naxçıvanda olan münşilərin günəşi)ləqəbi aldığı müəyyənləşdirilmişdir.

6. Tədqiqat nəticəsində təzkirələrin ədəbiyyatımızın öyrənilməsində mühüm əhəmiyyət kəsb etdiyi müəyyən edilmişdir. XIII əsrdən etibarən isə fars ədəbiyyatında təzkirə janrının nümunəsi görünməyə başlamışdır. İran ədəbiyyatında ilk və ən mühüm sayılan təzkirə Məhəmməd Övfinin (1177- 1233) "Lübab əl-əlbab" (1221) təzkirəsidir. Bu əsər islamiyyətdən sonra və xüsusilə, qəznəvilərlə səlcuqlular dövründə yetişən İran alimləri və şairləri haqqında mühüm məlumatlar verən qaynaqdır Əlyazmaların öyrənilməsi nəticəsində müəyyən edilmişdir ki, klassik irsimizin öyrənilməsində milli kök və qaynaqlara söykənmək çox mühümdür. Bu qaynaqlardan ən mükəmməli təzkirələrdir. Keçmiş sovet rejimi dövründə ədəbiyyat tarixi kitablarında adı çəkilməklə kifayətlənilən və ikinci dərəcəli qaynaq rolunu oynayan, ehtiva etdiyi bilgilərə daha çox şübhə ilə yanaşılan təzkirələrin klassik estetik-bədii irsimizin öyrənilməsindəki rolu və əhəmiyyəti inkar olunmaz bir faktdır. Təzkirələr Azərbaycan ədəbiyyatşünaslığının ilk nümunələri kimi, klassik irsin toplanması, öyrənilməsi, yayılması və təbliği, ayrı-ayrı yazıçılar haqqında müxtəlif xarakterli məlumatların qorunub saxlanması sahəsində böyük iş görmüşdür.

7. Naxçıvanqala tarix-memarlıq kompleksindəki kitabələr oxunub tərcümə olunmuş, Qureyş Şaxbanu, Əmir Şaxmənsur, İzzi Şərəf xanım kimi tarixi səxsiyyətlərin adları müəyyənləşdirilmişdir. Şahbuz rayonun Şahuzkəndində aparılan araşdırma zamanı aşkar olunan sənduqə tipli sinə daşının üzərindəki kitabənin oxunması zamanı oonun XVI əsrdə yaşamış nüfuzlu bir şəxsə - Bərlixanın oğlu Məlik Vəlixana aid olduğu müəyyən olunmuşdur. Naxçıvan Muxtar Respublikasında Xanlıqlar dövrünə aid kitabələrin tədqiqi Naxçıvan xanlığının ictimai-siyasi həyatında olan bir sıra məsələləri aydınlaşdırmağa imkan vermiş, həmçinin Orta əsrlərdə Naxçıvanın ictimai-siyasi həyatında mühüm rol oynayan tarixi şəxsiyyətlər xüsusilə Heydərqulu xan və Şükrulla xan və onların fəaliyyəti ilə

bağlı yeni məlumatlar əldə edilmişdir. Naxçıvanın qayaüstü təsvirlərində, tarix və memarlıq abidələrində, həmçinin dekorativ-tətbiqi sənət nümunələrindəki təsvirlərin semantikası araşdırılmış, onların Naxçıvanda yaşayan qədim ulu əcdadlarımızın inancları ilə bağlı olduğu müəyyənləşdirilmişdir. Etnoqrafik tədqiqatlar zamanı Naxçıvan Muxtar Respublikası ərazisindən toplanmış materiallar və tarixi mənbələrin araşdırılması nəticəsində on iki heyvanla bağlı adət və mərasimlər, türk xalqlarının etnogenetik əlaqələri araşdırılmış onların oxşar adəd və ənənəyə malik olduğu müəyyənləşdirilmişdir.Naxçıvanın bir çox tarixi şəxsiyyətlərinin, o cümlədən Qureyş Şaxbanu, Əmir Şaxmənsur, İzzi Şərəf xanım, Fazil Naxçıvani, Bərlixanın oğlu Məlik Vəlixanın adları müəyyənləşdirilmişdir. Araşdırmalar nəticəsində Ordubad rayonunun Pəzməri kəndi yaxınlığında yerləşən Tiri piri kitabəsinin Naxçıvan ərazisində çox nadir hallarda təsadüf edilən Azərbaycan türkcəsində həkk edildiyi müəyyən edilmişdir. Kitabənin həkk edildiyi tarix Səfəvi hökmdarı Şah Məhəmməd Xudabəndənin hakimiyyətinin son dövrləri, I Şah Abbasın hakimiyyətə gəldiyi dövrə təsadüf edir. Bu dövrdə Səfəvilər dövlətində türk mənşəli əyanlar hakim mövqeyə malik idilər. Azərbaycan dili dövlətlər arası yazışmalarda, sarayda, şahın ailəsində, orduda və s. əsas ünsiyyət vasitəsi idi. Ona görə də bu cəhət özünü epiqrafik abidələrin yazılmasında da göstərmiş və bəzi kitabələr, o cümlədən haqqında bəhs etdiyimiz kitabə Azərbaycan türkcəsində həkk edilmişdir.

8. Naxçıvan Muxtar Respublikasının dekorativ-tətbiqi sənət nümunələri araşdırılmış, müəyyən olunmuşdur ki, xalçalarımızın üzərindəki təsvirlər xalqımızın qədim ideoloji görüşləri ilə bağlı olmuşdur. xalçalar üzərindəki müxtəlif təsvirlərin Azərbaycan türklərinin mifoloji düşüncəsini yansıtdığını və bu düşüncənin də çox qədim zamanlara dayandığını müəyyənləşdirilmişdir. Çeşitli təsvirləri olan xalçalar bir ev eşyası olmakla bəraber, insanlara uğur, bolluk ve bərəkət gətirməli, onları bəd qüvvələrdən qorumalıydı. Naxçıvan Muxtar Respublikasının əməkdar incəsənət xadimi Şamil Qazıyevin həyat və yaradıcılığı tədqiqat obyektinə çevrilərək onun həyat və fəaliyyəti geniş şəkildə araşdırılmışdır.
9. Tədqiqatların nəticələri ilə bağlı 8 monoqrafiya və 82 məqalə nəşr olunmuş, Naxçıvan təpə yaşayış yeri: https://az.wikipedia.org/wiki/Naxçıvan Təpə_yaşayış_yeri, Naxçıvanın Eneolit mədəniyyəti: https://az.wikipedia.org/wiki/Naxçıvanın _Eneolit_mədəniyyəti, Qızqalası yaşayış yeri: https://az.wikipedia.org/wiki/Qız qalası yaşayış_yeri , Uçan Ağıl: https://az.wikipedia.org/wiki/Uçan Ağıl, Naxçıvanın Orta Eneolit mədəniyyəti: https://az.wikipedia.org/wiki/Naxçıvanın Orta Eneolit mədəniyyəti, Uzun Oba: https://az.wikipedia.org/wiki/Uzun oba, Qız qalası kurqanları: https://az.wikipedia.org/wiki/Qız qalası kurqanlar və digər abidələr haqqında məlumatlar vikipediyaya yerləşdirilmiş, 100-dən artıq arxeoloji abidənin elektron qeydiyyatı həyata keçirilmişdir.

| | |
|---|---|
| 4 | Layihə üzrə elmi nəşrlər (elmi jurnallarda məqalələr, monoqrafiyalar, icmallar, konfrans materiallarında məqalələr, tezislər) (dərc olunmuş, çapa qəbul olunmuş və çapa göndərilmişləri ayrılıqda qeyd etməklə, uyğun məlumat - jurnalın adı, nömrəsi, cildi, səhifələri, nəşriyyat, indeksi, İmpact Factor, həmmüəlliflər və s. bunun kimi məlumatlar - ciddi şəkildə dəqiq olaraq göstərilməlidir) *(surətlərini kağız üzərində və CD şəklində əlavə etməli!)* |


1. BaxşəliyevV., Quliyeva Z., yəşimova T., Mehbalıyev K., Baxşəliyev E. Naxçıvan təpə yaşayış yerində arxeoloji tədqiqatlar. Naxçıvan: Əcəmi, 2018, 264 s.
2. BaxşəliyevV. 2017-ci ildə Naxçıvanın arxeoloji tədqiqi. Naxçıvan: Əcəmi, 2018, 58 s.
3. BaxşəliyevV. Naxçıvantəpədə 2018-ci ilin arxeoloji tədqiqatları. Naxçıvan: Əcəmi, 2018,

136 s.

4. Baxşəliyev V.B. Naxçıvanda 2018-ci ilin arxeoloji tədqiqatları. Naxçıvan: Əcəmi, 2019, 104 s.
5. BaxşəliyevV. Nahçıvanın Kalkolitik Çağ Kültürü (Naxçıvan, Azerbaycan). TUBA-AR, 2018, 23 s. 29-52 (həmmüəllif Zeynəb Quliyeva).
6. BaxşəliyevV. Orta Tunc dövrü Şortəpə yaşayiş yeri və nekropolu // Naxçıvan Universitetinin elmi əsərləri, 2018, № 3 (10), s. 162-169 (həmmüəllif Emin Məmmədov, Turan Həşimova).
7. BaxşəliyevV. Naxçıvanda Neolit, Eneolit və Tunc dövrü abidələrinin tədqiqi// AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 3, s.98-109.
8. Baxşəliyev V.B. Kültəpə ətrafındakı Neolit abidələrinin arxeoloji tədqiqi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3, s. 117-124.
9. Baxşəliyev V.B.Naxçıvanın qədim köç yollarının tədqiqi // Naxçıvan Universitetinin əsərləri, 2017, № 2, s. 177-184.
10. Бахшалиев В.Б., Маро К., Реми Б., Кулиева З. Археологические раскопки на поселении Кюльтепе / Problems of the Archaeology of theCaucasus and Near East. Neolithic - Late Bronze Age. Baku: Институт археологии и этнографии. 2017, с. 26-41.
11. Бахшалиев В.Б. Исследование энеолитических памятников Сирабчайской и Нахчыванчайской долин. Problems of the Archaeology of the Caucasus and Near East. Neolithic - Late Bronze Age. Baku: Институт археологии и этнографии. 2017, с. 108-121.
12. Baxşəliyev V. Naxçıvan təpə yaşayış yerində arxeoloji qazıntılar // 2017-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatlar. Bakı, 2017, s. 24-25
13. Baxşəliyev V. Naxçıvan təpə yaşayış yerində arxeoloji qazıntılar // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 1, s. 80-88.
14. Baxşəliyev V. Naxçıvanın Türk-İslam memarlığında qədim inşaat sənətinin və ornamental motivlərin izləri // Axtarışlar, 2018, № 1, s. 174-179.
15. Bakhshaliyev V. Ancient Cultures Of Sirabçay And Nakhchivançay Valley // Azərbaycan xalçaları, 2018, №25, s. 104-113.
16. Baxşəliyev V. Archaeological researches in the settlement of Nakhchivan tepe // AMİSOS, 2018, issue 4, pp. 40-66.
17. Baxşəliyev V. Azərbaycan Xalq Cümhuriyyəti dövründə Naxçıvan Milli Komitəsinin fəaliyyəti // Axtarışlar, 2018, № 2, s. 192-197.
18. Baxşəliyev V. Naxçıvanın Eneolit mədəniyyəti //Naxçıvan Universitetinin Elmi əsərləri, 2018, № 1, s.155-173.
19. Baxşəliyev V.Naxçıvan təpə yaşayış yerində arxeoloji tədqiqatlar // Azərbaycan Milli Elmlər Akademiyasının Xəbərləri, 2018, № 2, s. 52-72.
20. Naxçıvanda Neolit, Eneolit və Tunc dövrü abidələrinin tədqiqi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 3, s.98-109.
21. Baxşəliyev V.Şərur rayonunun Eneolit Abidələri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2019, № 1, s.79-88.
22. Bahşaliyev V. Kızkalesi yerleşmesi ve nekropolünün Doğu Anadolu ve Azerbaycan Boyalı Kaplar Kültürünün Araştırılmasında önemi /IV Uluslararası Ağrı dağı ve Nuhun Gemisi simpozyumu, 2018, s. 39-42. (həmmüəllif Lauren Ristvet, Hilary Gopnik)
23. Бахшалиев В. Археологические исследования поселения Нахчыван тепе //

*Российская археология, № 2, с.114-128.*

24. Səfərli F. Naxçıvanın məscid və ziyarətgahları. Naxçıvan: Əcəmi, 2018, 216 s.
25. Səfərli F. "Naxçıvanqala" tarix-memarlıq muzey kompleksində nümayiş etdirilən epiqrafik abidələr tədqiqi // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3, s.18-25.
26. 5.Səfərli F. Naxçıvan xanlığı dövrünə aid epiqrafik abidələr // Naxçıvan Universitetinin əsərləri, 2017, № 2,s. 185-194.
27. Səfərli F.Şahbuz rayonunda epiqrafik tədqiqatlar // Dövlət və Din, 2017, № 2, s.115-119.
28. Səfərli F. Naxçıvan şəhərinin epiqrafik abidələrindən // Naxçıvan Universitetinin elmi əsərləri, 2017, № 3, s. 154-160.
29. Səfərli F. Naxçıvanda Hülakülər dövrünə aid memarlıq abidələri // Tarix və onun problemləri, 2018, 1, s. 311-317.
30. Səfərli F. The role of the muslim clergi in the socio-political life of Azerbaijan /Актуальные научные исследования в современном мире. Переяслав, 2018, вып. 1/33, с. 93-97.
31. Səfərli F. Naxçıvan şəhərinin epiqrafik abidələrindən / Axtarışlar, 2017, № 3, s. 122-127.
32. Səfərli F. Şərq memarlığının gözəl nümunəsi – Yeycə hamamı // Naxçıvan Universitetinin Elmi əsərləri, 2018, № 1, s. 174-180.
33. 8. Səfərli F. Naxçıvanın Türk-İslam mədəniyyəti abidələri // Axtarışlar, 2018, № 2, s. 184-191.
34. Səfərli F.Möminə xatın türbəsinin kitabələrində əks olunan şəxsiyyətlər // Axtarışlar, 2018, № 3, s. 131-137.
35. Səfərli F. Qondarma erməni soyqırımı və tarixi həqiqətlər. Naxçıvan: "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, 2018, 208 s.
36. Səfərli F. Orta əsrlər zamanı Naxçıvanda yaşamış bəzi alimlər haqqında (epiqrafik materiallar əsasında) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 3, s.13-18.
37. Səfərli F. Naxçıvanın məscid və ziyarətgahları. Naxçıvan: "Əcəmi" Nəşriyyat Poliqrafiya Birliyi, 2018, 216 s.
38. Səfərli F. Naxçıvan şəhərinin epiqrafik abidələri. Naxçıvan: Əcəmi, 2019, 152 s.
39. Səfərli F. Həmdullah Qəzvini "Naxçıvan tüməninə daxil olan şəhərlər haqqında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2019, № 1, s.18-24.
40. Qədirzadə Q. 12 heyvanla bağlı halq təqvimi haqqında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3, s. 142-149.
41. Quliyeva Zeynəb. Kültəpə yaşayış yerinin Neolit mədəniyyəti // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3, s. 125-135.
42. Quliyeva Z. Arpaçay vadisinin Türk-İslam abidələrində qədim mədəniyyətlərin izləri // Naxçıvan Universitetinin əsərləri, 2017, № 4, 202-210.
43. Quliyeva Z. Naxçıvanın Neolit və Eneolit tayfalarının təsərrüfatı // Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri, 2018, № 2, s. 43-48.
44. Quliyeva Z. Naxçıvanın Erkən və Orta Eneolit keramikası //Naxçıvan Universitetinin Elmi əsərləri, 2018, №2, s. 182-187.
45. Guliyeva Z. Nahçıvan və Doğu Anadolunun Eneolit seramiğinin Ornament (süs) hususiyyetleri /IV Uluslararası Ağrı dağı ve Nuhun Gemisi simpozyumu, 2018, s. 51-57.
46. Quliyeva Z. Naxçıvanın Eneolit abidələrinin Cənubi Qafqazdakı yeri// AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 3, s. 116-125.
47. Quliyeva Z. Naxçıvanın Son Eneolit abidələri, Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri,

2017, № 6, s. 43-48.

48. Quliyeva Z. Naxçıvanın Neolit dövrü ocaqları // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2019, № 1, s. 89-96.

49. Quliyeva Z. Naxçıvanın Neolit və Eneolit abidələrinin öyrənilməsinin əhəmiyyəti // Naxçıvan Dövlət Universiteti. elmi əsərlər, 2018, № 6 , s. 62-70.

50. Кулиева Ф. Последний период энеолита Овчулартепеси: орнаментальные мотивы и семантика образцов декоративно-прикладного искусства / Сборник тезисов научных работ, 2018, с. 9-13.

51. Quliyeva Fizzə. Şamil Qazıyevin həyatı və yaradıcılığı. Naxçıvan: Əcəmi, 144 s.

52. Quliyeva F. Naxçıvan xalçalarının qədim naxışı-buta // Axtarışlar, 2018, 2018, № 1, s. 124-129.

53. Кулиева Ф. Предметы декоративно-прикладного искусства поселения Нахчыван тепе //Virtus, 2018, № 21, с. 33-36.

54. Quliyeva F. Naxçıvanın qədim sənət nümunələrindəki ilan təsvirlərinin semantik məzmunu // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3,s. 295-301.

55. Quliyeva F. Naxçıvanın qədim sənət nümunələrində astral simvollar // Naxçıvan Universitetinin əsərləri, 2017, № 2, s. 214-220.

56. Quliyeva F. Naxçıvanın Türk-İslam mədəniyyəti abidələrindəki meandr motivinin tarixi kökləri // Axtarışlar, 2017,s. 182-186.

57. Quliyeva F. Naxçıvanın Son Tunc və Erkən Dəmir dövrü bəzək əşyaları // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 1, s. 240-246.

58. Quliyeva F. Şamil Qazıyevin əsərlərində Köhnə Naxçıvanın təsviri // Naxçıvan Dövlət Universitetinin əsərləri, 2018, № 1, s. 170-174.

59. Quliyeva F.Naxçıvan xalçalarında buta naxışının inkişaf xüsusiyyətləri // Azərbaycan xalçaları, 2018, № 26, s. 34-43

60. Quliyeva F. Naxçıvanın Orta Eneolit dövrü boyalı və qabartma bəzəməli qabları // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2019, № 1, s. 255-261.

61. Eylazov F. Fazil Naxçıvani haqqında ilk söz // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3, s. 242-246.

62. Eylazov F. Ordubadlı müəllifin nücum elminə aid bir əlyazması haqqında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 1, s. 189-193.

63. Eylazov F. Mahmud Qaşğarinin həyatı və Divani-Lüğatit Türk əsəri // Filologiya məsələləri, 2018, № 2, s.239-243.

64. Eylazov F. Məhəmməd ibn Hinduşah Naxçıvaninin həyatı və yaradıcılığı / Azərbaycan əlyazmaları dünya kitabxanalarında mövzusunda III Beynəlxalq elmi-nəzəri konfransın materialları, Bakı, 2018, s. 147-148.

65. Eylazov F. Kazımbəy Ordubadinin "Tibbə dair qeydlər" əsəri haqqında Nxçıvan Universitetinin Əsərləri, 2018, № 2, s. 109-112.

66. Eylazov F.Azərbaycan təzkirəşünaslığına bir baxış// AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2019, № 1, s. 197-200.

67. Xəlilov T. Naxçıvanın Tunc dövrü dulusçuluq emalatxanası və kürələri haqqında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 1, s. 89-96.

68. Halilov T. Nahçıvanın eski sanat alanlarından // Karadeniz, 2017, №34, s. 22-29.

69. Xəlilov T.Gəmiqaya ətrafındakı yurd yerləri və dəyirmanlar // AMEA Naxçıvan Bölməsinin

Xəbərləri, 2017, № 3, s. 136-141.

70. Xəlilov T. Gemikaya çevresinden bulunmuş yeni kayaüstü resimlerin bazıları haqqında // Avrasiya, 2017, № 11, s.100-109.
71. Xəlilov T. Nahçıvan Bölgesi Erken Tunç Çağı Seramik Desenlerinin yayılım alanı ve anlamı hakkında / Uluslararası Bilimsel Araştırmalar Dergisi, 2017, № 2, s. 23-33.
72. Xəlilov T. Nahçıvanda seramikçiliğin gelişim tarihinden // Karadeniz araştırmaları, 2017, № 55, s. 47-55.
73. Xəlilov T.Naxçıvanın Tunc dövrü dulusçuluq emalatxanası və kürələri haqqında // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, №1, s. 89-96.
74. Xəlilov T. Gilançay nehrinin yeni arkeoloji anıtları üzerine bir araştırma // İstanbul Journal of social Scienses, 2018, № 19, s. 33-44
75. Xəlilov T. Naxçıvanın Tunc dövrü qablarının rəngləri və ornamentasiyası haqqında // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2018, № 2, s. 68-73.
76. Halilov T. Nahçıvan anıtlarının Azərbaycan arkeolojisinde bilimsel önemi, Manas, 2017, № 4, s. 677-687.
77. Halilov T. Nahçıvan BölgesininOrta Tunc Çağı kil kapları üzerindeki desenlerin yayılım alanı ve anlamı hakkında //KAREN, 2018, № 4,s. 141-154.
78. Halilov T. Seramik bulğuları işığında Gemikaya çevresi / 2 Uluslararası sosyal bilimler ve Eğitim araştırmaları Sempozyumu, Konya, 2018, s. 433-455.
79. Halilov T. Naxçıvandakı Son Tunc dövrü abidələrinin xarakteristikası // Naxçıvan Dövlət Universitetinin Elmi Əsərləri, 2018, № 6, s. 43-47.
80. Xəlilov T. Tunc dövrü dulusçuluq sənətinin texniki üsulları haqqında AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2019, № 1, s. 97-101.
81. Orucov A. Hamam və yuyunma mədəniyyəti // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2017, № 3, s. 150-153.
82. Orucov A. Ordubad şəhərinin tarixi-memarlıq abidələri (XIX-XXI əsr) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 1, s. 75-78.
83. Orucov A. Naxçıvanın şəhər əhalisinin ənənəvi yeməkləri // Naxçıvan Universitetinin Elmi əsərləri, 2018, № 1, s. 244-250.
84. Orucov A. XIX-XX əsrlərdə Naxçıvanda şəhər əhalisinin geyimləri // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2018, № 3, s. 140-146.
85. Orucov A.XX-XXI əsrin əvvəllərində toy mərasimi: ənənə və müasirlik (Naxçıvanda şəhər materialları əsasında) // AMEA Naxçıvan Bölməsinin Xəbərləri, 2019, № 1, s. 102-107.
86. İbrahimli B., Səfərli F., Xəlilov T. Xaraba-Gilan arxeoloji ekspedisiyasının 2017-ci ildə apardığı tədqiqatlar //2017-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatlar. Bakı, 2017, s. 27-28.
87. İbrahimli B. Plovdağ Tunc dövrü yaşayış yerinin dövrləşdirilməsinə dair // 2017-ci ildə Azərbaycanda aparılmış arxeoloji və etnoqrafik tədqiqatlar. Bakı, 2017, s. 19-20.
88. İbrahimli B. Gilançay vadisində daş örtüklərin meydana gəlməsi və inkişafı tarixindən // Azərbaycan arxeologiyası, 2017, № 2, s. 57-68.
89. İbrahimli B. Naxçıvanda orta əsr şəhərləri- Aza // Azərbaycan arxeologiyası, 2018, № 2, s. 94-109.
90. Məmmədov E. Şərur arxeoloji abidələrinin tədqiqi Eneolit dövrü mədəniyyətinin öyrənilməsinə mühüm töhvədir // Naxçıvan Dövlət Universitetinin Əsərləri, 2017, s. 66-70)

| | |
|---|---|
| 5 | İxtira və patentlər, səmərələşdirici təkliflər<br>*(burada doldurmalı)* |

| | |
|---|---|
| | |
| 6 | Layihə üzrə ezamiyyətlər (ezamiyyə baş tutmuş təşkilatın adı, şəhər və ölkə, ezamiyyə tarixləri, həmçinin ezamiyyə vaxtı baş tutmuş müzakirələr, görüşlər, seminarlarda çıxışlar və s. dəqiq göstərilməlidir) |
| | *(15 noyabr 2017 Bakı şəhəri, 6 iyun 2018-ci il Bakı şəhəri, 1 noyabr 2018-ci il Bakı şəhəri. Ezamiyyə müddətində Milli Azərbaycan Tarixi Muzeyinin Fondunda və AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun Arxeoloji Fondunda olan, I Kültəpədən aşkar olan arxeoloji materialların qrafik təsvirləri hazırlanmış, arxeoloji materiallar yenidən işlənmişdir.)* |
| 7 | Layihə üzrə elmi ekspedisiyalarda iştirak (əgər varsa) |
| | *(Layihə rəhbəri Vəli Baxşəliyev və iştirakçı Fizzə Quliyeva, Zeynəb Quliyeva, Toğrul Xəlilov, Emin Məmmədov Naxçıvan ərazisində kəşfiyyat xarakterli araşdırmalarda, Asəf Quliyev etnoqrafik araşdırmalarda iştirak etmişdir)* |
| 8 | Layihə üzrə digər tədbirlərdə iştirak |
| | *(burada doldurmalı)* |
| 9 | Layihə mövzusu üzrə elmi məruzələr (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s. çıxışlar) (məlumat tam şəkildə göstərilməlidir: a) məruzənin növü: plenar, dəvətli, şifahi və ya divar məruzəsi; b) tədbirin kateqoriyası: ölkədaxili, regional, beynəlxalq) |
| | *(Layihə rəhbəri Vəli Baxşəliyev AMEA Naxçıvan Bölməsində arxeoloji kəşfiyyat işləri haqqında seminar vermişdir)* |
| 10 | Layihə üzrə əldə olunmuş cihaz, avadanlıq və qurğular, mal və materiallar, komplektləşdirmə məmulatları |
| | *(1.Lenova Think Pad E 570 Noutbook. 2. Lenova Think Pad Mous. 3. Canon MF Toolbox 4.9 Printer )* |
| 11 | Yerli həmkarlarla əlaqələr |
| | *(AMEA Arxeologiya və Etnoqrafiya İnstitutunun, AMEA Milli Azərnbaycan Tarixi Muzeyinin əməkdaşları ilə əlaqələr yaradılmışdır.)* |
| 12 | Xarici həmkarlarla əlaqələr |
| | *(Fransa Milli Araşdırmalar Mərkəzinin əməkdaşları, ABŞ Pensilvaniya Universitetinin, Ohio Universitetinin, Çikaqo Universitetininəməkdaşlar ilə, Tehran Universitetinin və Təbriz Sənət Universitetinin, Ərzurum Atatürk Universitetinin əməkdaşları ilə elmi əlaqələr yaradılmışdır)* |
| 13 | Layihə mövzusu üzrə kadr hazırlığı (əgər varsa) |
| | *(AMEA Naxçıvan Bölməsinin dissertantı Fizzə Quliyeva "Naxçıvanın Eneolit və Tunc dövrü tətbiqi sənət nümunələri" mövzusu üzrə, Vedat Evren Belli "Naxçıvan və Şərqi Anadolunun Erkən Dəmir dövrü mədəniyyəti" mövzusu üzrə Vəli Baxşəliyevin rəhbərliyi ilə tədqiqat aparmışlar.)* |
| 14 | Sərgilərdə iştirak (əgər baş tutubsa) |
| | *(Layihə iştirakçıları çap olunmuş əsərlərlə AMEA Naxçıvan Bölməsinin təşkil etdiyi sərgilərdə iştirak etmişdir.Arxeoloji tədqiqatların nəticələri ilə bağlı Fransa Milli Araşdırmalar Mərkəzinin əməkdaşları Bakıda sərgi təşkil olunmuşdur. )* |

| | | |
|---|---|---|
| 15 | Təcrübəartırmada iştirak və təcrübə mübadiləsi (əgər baş tutubsa)<br>*(Layihə rəhbəri Vəli Baxşəliyev Cənbi Qafqaz və Avropa alimlərinin Neolit mədəniyyəti üzrə təşkil etdiyi beynəlxalq qrumla təcrübə mübadiləsi aparmışdır.)* |
| 16 | Layihə mövzusu ilə bağlı elmi-kütləvi nəşrlər, kütləvi informasiya vasitələrində çıxışlar, yeni yaradılmış internet səhifələri və s. (məlumatı tam şəkildə göstərilməlidir)<br>*(Aparılan tədqiqat işləri ilə bağlı Azərbaycanın, cümlədən Naxçıvanın kütləvi informasiya vasitələrində məlumat verilmişdir. Layihə rəhbəri və iştirakçıları Naxçıvan televiziyası. İctimai TV ilə çıxış etmiş və Şərq qapısı qəzetinə məqalələr yazmışlar. Arxeoloji abidələrlə bağlı internet səhifələri yaradılmışdır. https://az.wikipedia.org/wiki/Naxçıvan_Təpə_yaşayış_yeri, Naxçıvanın Eneolit mədəniyyəti: https://az.wikipedia.org/wiki/Naxçıvanın _Eneolit_mədəniyyəti, Qızqalası yaşayış yeri: https://az.wikipedia.org/wiki/Qız_qalası yaşayış_yeri , Uçan Ağıl: https://az.wikipedia.org/wiki/Uçan Ağıl, Naxçıvanın Orta Eneolit mədəniyyəti: https://az.wikipedia.org/wiki/Naxçıvanın_ Orta Eneolit mədəniyyəti, Uzun Oba: https://az.wikipedia.org/wiki/Uzun_oba, Qız qalası kurqanları: https://az.wikipedia.org/wiki/Qız_qalası_kurqanları )* |

SİFARİŞÇİ:
Elmin İnkişafı Fondu

Baş məsləhətçi
Quliyeva Mülayim Sahib qızı

(imza)
" 01" may 2019-cu il

İCRAÇI:

Layihə rəhbəri
Baxşəliyev Vəli Baxşəli oğlu

(imza)
" 01" may 2019-cu il

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA

## ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi**
**çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat**
**proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş**
**layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ NƏTİCƏLƏRİN ƏMƏLİ (TƏCRÜBİ) HƏYATA KEÇİRİLMƏSİ VƏ LAYİHƏNİN NƏTİCƏLƏRİNDƏN GƏLƏCƏK TƏDQİQATLARDA İSTİFADƏ PERSPEKTİVLƏRİ HAQQINDA MƏLUMAT VƏRƏQİ

**(Qaydalar üzrə Əlavə 16)**

Layihənin adı: **Naxçıvan tarixinin arxeoloji, etnoqrafik, epiqrafik və Şərq mənbələri əsasında kompleks tədqiqi, tarix-mədəniyyət abidələrinin elektron qeydiyyatı və xəritələşdirilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Baxşəliyev Vəli Baxşəli oğlu**
Qrantın məbləği: : **150 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/47/5-M-49**
Müqavilənin imzalanma tarixi: **27 aprel 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2017-ci il – 01 may 2019-cu il**

### 1. Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi

| | |
|---|---|
| **1** | Layihənin əsas əməli (təcrübi) nəticələri, bu nəticələrin məlum analoqlar ilə müqayisəli xarakteristikası |
| | *(Naxçıvanda yerləşən Eneolit abidələrinin tədqiqi bu coğrafiyadakı Eneolit mədəniyyətini e.ə. V minilliyin əvvəlindən e.ə. IV minilliyin ortalarına qədər kəsintisiz izləməyə imkan verir. Bu baxımdan Eneolit dövrünün erkən və orta mərhələsinə aid arxeoloji materiallar xüsusilə əhəmiyyətlidir. Naxçıvanda Eneolit dövrünün erkən və orta mərhələsi Dalma təpə mədəniyyəti ilə sıx bağlıdır. Dalma təpə mədəniyyəti üçün xarakterik olan basqı bəzəməli keramika Qarabağ, Mil-Muğan abidələrində izlənmişdir. Bu Urmiya hövzəsi ilə Şimali Azərbaycan arasındakı əlaqələri əks etdirir. Bu kültürün indiyədək ortaya çıkmamasının səbəbi Eneolit dövrünün erkən mərhələsinə aid abidələrin yaxşı öyrənilməməsi ilə bağlı olmuşdur. Sovetlər dövründən başlayaraq Mesopotamiya mədəniyyətlərinin Cənubi Qafqaza yayılması ilə bağlı müxtəlif fikirlər irəli sürülmüştür. İ.H.Nərimanov Leylatəpə mədəniyyətini Ubeyd mədəniyyəti ilə bağlamış, Leylatəpə yaşayış yerinin Ubeyd-Uruk tayfaları tərəfindən salındığını qeyd etmişdir. Hazırda tədqiqatçıların bir qrupu tərəfindən Leylatəpə tipli abidələr Ubeyd mədəniyyətinə, digərləri tərəfindən isə Uruk mədəniyyətinə aid edilməkdədir. Araşdırmalar Azərbaycanın* |

| | |
|---|---|
| | *Arazdan cənubda yerləşən abidələrində və Urmiya hövzəsində Dalma təpə keramikası tipik Xalaf və Ubeyd keramikası ilə birlikdə yayılır. Naxçıvanın və Cənubi Azərbaycanın Son Eneolit mədəniyyətinin tədqiqi Ubeyd mədəniyyətinin bu regiona müəyyən təsir etdiyini göstərir. Ubeyd mədəniyyətinin ənənələri Göytəpə, Yanıqtəpə, Ovçulartəpəsi, Xalac və Culfa yaxınlığındakı Kültəpədə izlənir. Dalma təpə keramikasının araşdırılması onun yerli istehsalın məhsulu olduğunu göstərir. Söyləyə bilərik ki, Nahçıvan Dalma təpə mədəniyyətinin yayılma arealına daxil olmuşdur. Araşdırmalar Cənubi Qafqaz mədəniyyətlərinin yerli zəmində formalaşdığını və Yaxın Şərq ölkələri ilə əlaqəli şəkildə inkişaf etdiyini göstərir. Bu Cənubi Qafqazın xammal mənbələri xüsusilə obsidian və mis yataqları ilə bağlı olmalıdır. Şübhəsiz ki, gələcək araşdırmalar Yaxın Şərq və Cənubi Qafqaz mədəniyyətləri arasındakı əlaqələri daha da geniş şəkildə öyrənməyə imkan verəcəkdir. İndiyədək Cənubi Qafqazda Naxçıvan təpə tipli abidə aşkar olunmamışdır. I Kültəpə, Şomutəpə, Xatunarx, Şulaverivə digər yaşayış yerlərinin Neolit dövrünə aid edilməsi Son Neolit və Son Eneolit mədədəniyyətləri arasında bir boşluğun yaranmasına səbəb olmuşdu. Buna uyğun olaraq tədqiqatçılar Cənubi Qafqazın Eneolit mədəniyyətini Erkən Eneolit (e.ə. 4800-4000) və Orta/Son Eneolit (4000-3200) dövrlərinə bölmüşlər. Digərləri Erkən Eneoliti e.ə. V minilliyin birinci yarısına, Orta Eneolitin sonunu Son Eneoliti e.ə. V minilliyin ikinci yarısına aid etmişlər. Lakin Eneolit dövrünün erkən və orta mərhələsini aid edilən materiallar, daha doğrusu e.ə. V minilliyin birinci yarısına aid arxeoloji materiallar haqqında təsəvvürlər kifayət qədər aydın deyil. Son illər Cənubi Qafqazla Yaxın Şərqin qovşağında yerləşən Naxçıvanda aparılan araşdırmalar zamanı yeni Eneolit abidələri qeydə alınmışdır. Bu abidələr arasında Naxçıvançay və Sirabçay vadisində yerləşən Naxçıvan təpə, Uçan ağıl, Uzun oba yaşayış yerlərinin tədqiqi zamanı Eneolit dövrünün erkən (e. ə. 5000-4600) və orta (e. ə. 4600-4400) mərhələsinə aid materiallar üzə çıxarılmışdır. Naxçıvan təpə, Uçan ağıl və Uzun obada aparılan araşdırmalar bu dövrə aid arxeoloji materialların Ovçular təpəsi, Texut, Sioni, Menteş təpə, Arataşen, Berikldeebi, Böyük kəsik və digər abidələrlə təmsil edilən Son Eneolit mədəniyyətindən fərqləndiyini göstərmişdir. Sirabçay vadisində aparılan araşdırmalar isə Son Eneolit mədəniyyətinin bir-birindən fərqli iki mərhələsinin mövcud olduğunu deməyə imkan verir.Alınmış nəticələr Cənubi Qafqaz abidələrinin dövrləşdirilməsi üçün istifadə oluna bilər. Bununla bağlı Rossiyskaya arxeologiya və Tuba-Ar kimi beynəlxalq dərgilərə məqalələr göndərilmişdir)* |
| **2** | Layihənin nəticələrinin əməli (təcrübi) həyata keçirilməsi haqqında məlumat (istehsalatda tətbiq (tətbiqin aktını əlavə etməli); tədris və təhsildə (nəşr olunmuş elmi əsərlər və s. – təhsil sisteminə tətbiqin aktını əlavə etməli); bağlanmış xarici müqavilələr və ya beynəlxalq layihələr (kimlə bağlanıb, müqavilənin və ya layihənin nömrəsi, adı, tarixi və dəyəri); dövlət proqramlarında (dövlət orqanının adı, qərarın nömrəsi və tarixi); ixtira üçün alınmış patentlərdə (patentin nömrəsi, verilmə tarixi, ixtiranın adı); və digərlərində) |
| | *(Layihə iştirakçılarının Naxçıvanda apardığı tədqiqatların nəticələrindən istifadə olunaraq Naxçıvanda Duz muzeyi yaradılmışdır.)* |

2. **Layihənin nəticələrindən gələcək tədqiqatlarda istifadə perspektivləri**

| | |
|---|---|
| **1** | Nəticələrin istifadəsi perspektivləri (fundamental, tətbiqi və axtarış-innovasiya yönlü elmi-tədqiqat layihə və proqramlarında; dövlət proqramlarında; dövlət qurumlarının sahə tədqiqat proqramlarında; ixtira və patent üçün verilmiş ərizələrdə; beynəlxalq layihələrdə; və digərlərində) |
| | *(Əldə edilən nəticələr gələcəkdə arxeoloji abidələrin dövrləşdirilməsində, dərsliklərin yazılmasında, həmçinin Azərbaycan tarixinə aid mühazirələrin hazırlanmasında istifadə oluna bilər. Arxeoloji tədqiqatlar nəticəsində əldə edilən maddi-mədəniyyət nümunələri həmçinin muzey ekspozisiyalarının* |

*zənginləşdirilməsi və tariximizin müxtəlif dövrlərinin işıqlandırılması üçün istifadə oluna bilər)*

**SİFARİŞÇİ:**
**Elmin İnkişafı Fondu**

**Məsləhətçi**
Sədiyeva Türkan Vaqif qızı

____________________
*(imza)*
" 02" may 2018-ci il

**İCRAÇI:**

**Layihə rəhbəri**
Baxşəliyev Vəli Baxşəli oğlu

____________________

*(imza)*
" 02" may 2018-ci il

# AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA ELMİN İNKİŞAFI FONDU

MÜQAVİLƏYƏ ƏLAVƏ

**Azərbaycan Respublikasının Prezidenti yanında
Elmin İnkişafı Fondunun 2015-ci ilin əsas qrant müsabiqəsi
çərçivəsində təqdim olunmuş kompleks elmi-tədqiqat
proqramlarının (EİF-KETPL-2015-1(25)) qalibi olmuş
layihənin yerinə yetirilməsi üzrə**

## ALINMIŞ ELMİ MƏHSUL HAQQINDA MƏLUMAT
**(Qaydalar üzrə Əlavə 17)**

Layihənin adı: **Naxçıvan tarixinin arxeoloji, etnoqrafik, epiqrafik və Şərq mənbələri əsasında kompleks tədqiqi, tarix-mədəniyyət abidələrinin elektron qeydiyyatı və xəritələşdirilməsi**
Layihə rəhbərinin soyadı, adı və atasının adı: **Baxşəliyev Vəli Baxşəli oğlu**
Qrantın məbləği: : **150 000 manat**
Layihənin nömrəsi: **EİF-KETPL-2-2015-1(25)-56/47/5-M-49**
Müqavilənin imzalanma tarixi: **27 aprel 2017-ci il**
Qrant layihəsinin yerinə yetirilmə müddəti: **24 ay**
Layihənin icra müddəti (başlama və bitmə tarixi): **01 may 2017-ci il – 01 may 2019-cu il**
Diqqət! Bütün məlumatlar 12 ölçülü Arial şrifti ilə, 1 intervalla doldurulmalıdır

### 1. Elmi əsərlər (sayı)

| № | Tamlıq dərəcəsi / Elmi məhsulun növü | Dərc olunmuş | Çapa qəbul olunmuş və ya çapda olan | Çapa göndərilmiş |
|---|---|---|---|---|
| 1. | Monoqrafiyalar | 1 | 2 | 1 |
| | həmçinin, xaricdə çap olunmuş | | | |
| 2. | Məqalələr | 41 | 10 | 5 |
| | həmçinin xarici nəşrlərdə | 4 | 2 | 1 |
| 3. | Konfrans materiallarında məqalələr | | | |

| | | | | |
|---|---|---|---|---|
| | O cümlədən, beynəlxalq konfras materiallarında | 1 | 1 | |
| 4. | Məruzələrin tezisləri | | 4 | |
| | həmçinin, beynəlxalq tədbirlərin toplusunda | | | |
| 5. | Digər (icmal, atlas, kataloq və s.) | 1 | | |

## 2. İxtira və patentlər (sayı)

| № | Elmi məhsulun növü | Alınmış | Verilmiş | Ərizəsi verilmiş |
|---|---|---|---|---|
| 1. | Patent, patent almaq üçün ərizə | | | |
| 2. | İxtira | | | |
| 3. | Səmərələşdirici təklif | | | |

## 3. Elmi tədbirlərdə məruzələr (sayı)

| № | Tədbirin adı (seminar, dəyirmi masa, konfrans, qurultay, simpozium və s.) | Tədbirin kateqoriyası (ölkədaxili, regional, beynəlxalq) | Məruzənin növü (plenar, dəvətli, şifahi, divar) | Sayı |
|---|---|---|---|---|
| 1. | Elmi-praktiki konfrans | Ölkədaxili | şifahi | 4 |
| 2. | seminar | Ölkədaxili | şifahi | 1 |
| 3. | konfrans | Beynəlxalq | şifahi | 2 |

**SİFARİŞÇİ:**
Elmin İnkişafı Fondu

Baş məsləhətçi
Sədiyeva Türkan Vaqif qızı

___________________
(imza)
“ __” ________ 201_-ci il

**İCRAÇI:**

Layihə rəhbəri
Baxşəliyev Vəli Baxşəli oğlu

_________________
(imza)
“ __” ________ 201_-ci il